**UOT 94(479.24)**
https://doi.org/10.59849/2218-4783.2026.2.87

# XX YÜZİLLİYİN SONLARINDA CƏNUBİ QAFQAZDA BAŞ VERMİŞ HADİSƏLƏR: MİLLİ MÜNAQİŞƏLƏRİN SSRİ-NİN DAĞILMASINA TƏSİRİ

# EVENTS IN THE SOUTH CAUCASUS AT THE END OF THE 20TH CENTURY: THE IMPACT OF NATIONAL CONFLICT ON THE DISSOLUTION OF THE USSR

**Qadir ƏKBƏROV***

**XÜLASƏ**

XX yüzillik dünya tarixində Sovet İttifaqı adlanan qapalı, ideologiyaya əsaslanan bir məkanın mövcudluğu və əsrin sonunda süqut etdiyi dövlət kimi yaddaşlarda qaldı. Bu dövlət görünən və görünməyən müəmmalı tərəfləri ilə dövlət idarəçilik sistemində yeni nizamı ilə seçilmişdi. 1980-ci illərin ikinci yarısından etibarən Sovetlər birliyi daxilində gedən siyasi proseslər, milli özünüdərk və dünyada güc balansının dəyişməsi SSRİ rəhbərliyini yeni islahatlar keçirməyə, mövcud vəziyyəti ələ almağa, iqtisadi səmərəliliyi artırmağa yönəlmiş addımlar atmağa məcbur etdi. 1985-ci ildən sonra həyata keçirilmiş "yenidənqurma" və "aşkarlıq" siyasəti ölkəni bürümüş böhranlı vəziyyətdən xilas edə bilmədi. Respublikalar daxilində milli zəmində qarşıdurmalar ortaya çıxdı. Bu məsələ Cənubi Qafqazda daha təhlükəli vəziyyət aldı. Gürcüstanda Cənubi Osetiya və Abxaziya problemi, Ermənistanda azərbaycanlılara qarşı terror və deportasiya siyasəti, Azərbaycanın Qarabağ bölgəsində yaşayan ermənilərin Azərbaycan dövlətinə, azərbaycanlılara qarşı düşmənçilik meylləri ortaya çıxdı. Azərbaycanlılara qarşı Ermənistan rəhbərliyinin tutduğu düşmənçilik mövqeyi 200 minə yaxın azərbaycanlının öz yurdlarından qovulması ilə nəticələndi. Bir sözlə, Cənubi Qafqaz regionu sosial-siyasi baxımdan münaqişə zonasına çevrildi. Bütün bunlar SSRİ-nin dağılmasını bilavasitə sürətləndirmiş oldu. Haqqında bəhs edilən məsələlər tədqiqata cəlb edilmiş, faktlarla məqalədə öz əksini tapmışdır.

**Açar sözlər:** *Sovet İttifaqı, Azərbaycan, yenidənqurma, Qarabağ, separat, milli.*

**ABSTRACT**

The twentieth century entered world history as the era of the Soviet Union – a closed state built on ideological principles – which ultimately collapsed at the end of the century. The Soviet Union represented a unique political system with its own model of governance and distinctive ideological features. Since the second half of the 1980s, political processes within the Soviet Union, national self-awareness, and changes in the balance of power in the world forced the USSR leadership to implement new reforms, take steps to address the current situation, and increase economic efficiency. The policy of "perestroika" and "openness" implemented after 1985 could not save the country from the crisis that engulfed it. Conflicts on national grounds emerged within the republics. This issue took on a more dangerous situation in the South Caucasus. The problems of South Ossetia and Abkhazia in Georgia, the policy of terror and deportation against ethnic Azerbaijanis in Armenia, and the tendencies of Armenians living in the Karabakh region of Azerbaijan to be hostile towards the Azerbaijani state and Azerbaijanis emerged. The hostile position of the Armenian leadership towards Azerbaijanis resulted in the expulsion of about 200 thousand Azerbaijanis from their homeland. In short, the South Caucasus region became a conflict zone from a socio-political point of view. All this directly accelerated the collapse of the USSR. These developments constitute the main focus of the present study and are examined on the basis of historical evidence.

**Keywords**: *Soviet Union, Azerbaijan, perestroika, Karabakh, separatist, national.*

## GİRİŞ

XX əsrin sonlarında dünya geosiyasətində baş verən ən mühüm dəyişikliklərdən biri Sovet İttifaqının dağılması, dünya sosializm sisteminin çöküşü olmuşdur. 1991-ci ildə SSRİ-nin süqutu bey-

*Naxçıvan Dövlət Universiteti, e-mail: qadirekberov@ndu.edu.az
ORCID: 0009-0005-8693-9338

nəlxalq münasibətlərdə yeni reallıqlar yaratmış, əsaslı dəyişikliklərə səbəb olmuş, XX yüzilliyin böyük bir zaman kəsiyində mövcud olan ikiqütblü dünya nizamında əsaslı dəyişikliyə səbəb olmuşdur. Bu hadisə yalnız dünya miqyasında güc balansını dəyişməklə kifayətlənməmiş, eyni zamanda postsovet məkanında ortaya çıxan reallıqların, ittifaqa daxil olan respublikaların öz müstəqilliklərini elan etmələrinə zəmin yaratmışdır. Cənubi Qafqaz regionu siyasi sistemin baş verən dəyişikliyindən təsirlənən əsas ərazilərdən olmuşdur. Cənubi Qafqazda yerləşən üç əsas dövlət – Azərbaycan, Gürcüstan və Ermənistan müstəqilliklərini yenidən əldə etdikdən sonra çətin və çıxılmaz siyasi, iqtisadi və təhlükəsizlik problemləri ilə qarşı-qarşıya qalmışdır.

SSRİ-nin dağılmasına həm də obyektiv və subyektiv amillər təsir etmişdir. Məlum olduğu kimi SSRİ-də mövcud olan planlı təsərrüfat sistemi və bu sistemin səmərəsizliyi, qabaqcıl texnologiyalardan istifadə edilməməsi və istehsalın aşağı səviyyəyə düşməsi də ittifaq miqyasında dərin böhrana səbəb olmuşdur.

80-ci illərin ikinci yarısından başlayaraq SSRİ-də milli məsələ ictimai-siyasi həyata ciddi təsir etməklə sovet rəhbərliyini mühüm tədbirlər görməyə məcbur etdi. 1985-ci ildən sürətləndirmə konsepsiyası, yenidənqurma və aşkarlıq siyasəti elan edildi. Bu xətt qapalı dövlət siyasəti yeridilən sovetlər sistemində əsaslı dəyişikliklərin aparılmasına, yeni siyasi xətt müəyyən edilməsinə gətirib çıxartdı. Cəmiyyət həyatının demokratikləşdirilməsi, iqtisadiyyatın yeni standartlar əsasında qurulması, daxildə və ölkə xaricində baş verən hadisələrə, gedən proseslərə fərqli yanaşma ön plana çəkildi. Lakin ittifaq rəhbərliyinin ölkəni bürümüş böhranlı vəziyyətdən çıxış istiqamətində atdığı addımlarda xarici və daxili faktorları nəzərə almaması, islahatlar yolu ilə yenidənqurma siyasətinin həyata keçirilməsi ittifaq miqyasında, xüsusilə də Cənubi Qafqazda nəzarətdən çıxan proseslərin baş verməsinə gətirib çıxartdı. Regionda yeni münaqişə ocaqları meydana gəldi. Rusiya ilə Gürcüstan arasında Abxaziya problemi, osetin-gürcü qarşıdurması, Ermənistan-Azərbaycan Qarabağ problemi, separatizm meylləri baş qaldırdı. Cərəyan edən proseslər, bölgədə yaranmış hərbi-siyasi vəziyyət respublikaların sosial-iqtisadi həyatına ciddi təsir etməklə bərabər, daxili gərginliyi də artırırdı. Bölgənin idarə sistemində də xaos yaranmaqda idi.

**METODOLOGİYA**

Mövzu ilə əlaqədar məqalənin hazırlanmasında məqsəd Sovetlər birliyinin dağıldığı şəraitdə yaranmış vəziyyətə diqqət çəkmək, Gürcüstanda etnik zəmində baş vermiş qarşıdurmaları, Ermənistan SSR ərazisində azərbaycanlılara qarşı deportasiya siyasətini, Qarabağda erməni millətçilərinin dinc Azərbaycan əhalisinə qarşı törətdiyi qətliamları tarixi zaman və məkan reallığında analiz etməkdir. Sadalanan xüsusları ortaya çıxarmaq üçün tarixi-müqayisəli və tarixi genetik metodlardan istifadə edilmişdir. Həmçinin XX yüzilliyin başlanğıcında və sonlarında Azərbaycanın üzləşdiyi erməni terroru zamanı qonşu dövlətlərin, o cümlədən Rusiyanın Ermənistana siyasi və hərbi dəstəyi ilə bağlı faktlar müqayisəli formada təhlil edilmişdir.

**ƏSAS HİSSƏ**

Sovet İttifaqı ərazisində gözlənilmədən yaranmış anarxiya, qarşıdurmalar, mərkəzdənqaçma meylləri Sov.İKP MK Siyasi Bürosunun 16 noyabr 1990-cı il tarixli iclasında müzakirə edildi. Dövlətin rəhbər işçilərinin başlıca məqsədi ölkədəki qeyri-sabitliyi ortadan qaldırmaq, vəziyyəti sabitləşdirmək idi. İclasda ölkədə baş verə biləcək bütün qarşıdurmaların, nümayişlərin 6 ay müddətində dayandırılması üçün SSRİ Ali Sovetindən qərar qəbul etmək təklif edildi. SSRİ məkanında yaşayan çoxsaylı xalqların nümayəndələri arasında münasibətlərin kəskinləşməsi fonunda baş verən hadisələr ölkə rəhbərliyinin həyata keçirdiyi siyasətin özünü doğrultmadığı ortaya çıxdı. Yerlərdə bəzi qüvvələr hesab edirdilər ki, sərhədlərin dəyişdirilməsi dövrü gəlib çatmışdır. Bu dövrdə milli münasibətlər də

mücərrəd səviyyəyə qalxmışdı. Sov.İKP MK Siyasi Bürosu üzvlərinin bəziləri belə hesab edirdi ki, Kommunist Partiyasının ölkədəki hakim rolunun ləğv ediləcəyi təqdirdə onların mövqeləri də əldən gedəcəkdir. Elə buna görə də siyasi büro üzvləri çıxış yolunu prezident üsul-idarəsinin gücləndirilməsində və yeni İttifaq müqaviləsinin imzalanmasında görürdülər. Maraqlıdır ki, bu dövrdə iqtisadi sazişlər məsələsi siyasi prioritetlərdən geridə qalmışdı. SSRİ-nin mövcudluğunu qorumaq üçün hüquqi mexanizm üzrə referendum keçirilməsi qərara alındı. Lakin bu təşəbbüs cəmiyyətin bütün üzvləri tərəfindən birmənalı qarşılanmadı. SSRİ Daxili İşlər Nazirliyinin 14 mart 1991-ci il tarixli rəsmi məlumatlarına əsasən Moskvada belə genişmiqyaslı etiraz aksiyaları keçirildi və əhali SSRİ-nin saxlanılması üçün referendumun əleyhinə səs verməyə çağırıldı. Bir neçə gün sonra, martın 17-də referendum keçirildi. Referendumda SSRİ-nin saxlanılması tərəfdarları üstünlük qazandılar. Azərbaycanda isə Naxçıvan Muxtar Respublikasında əhali referenduma getmədi [Qasımlı, 2016: 449].

SSRİ məkanında baş verən hadisələr qeyd edildiyi kimi Qafqaza da təsirsiz ötüşməmişdi. Hələ 1990-cı illərin əvvəllərindən Gürcüstanda yaranmış vətəndaş qarşıdurmaları, Rusiya Federasiyası və Müstəqil Dövlətlər Birliyinə qarşı olan münasibət Z.Qamsaxurdiyanın hakimiyyəti illərində (1991-1992-ci illər) daha fərqli məcrada inkişaf etməyə başladı. Onun siyasəti respublikanın ərazi bütövlüyü məsələsini təhlükə altına saldı. Respublikada millətçilik meylləri artdı [Gamsahurdiya, 2015]. Azərbaycanlı əhaliyə qarşı da münasibət kəskin xarakter aldı. Gürcüstanda yaşayan digər xalqların nümayəndələrinə qarşı etnik ayrı-seçkilik siyasəti həyata keçirildi. Rusiyanın Gürcüstana təzyiqini azaltmaq, Cənubi Osetiya məsələsini öz mənafeyi baxımından həll etmək məqsədi ilə Gürcüstan hökuməti Çeçenistan Respublikasını açıq dəstəkləməyə başladı. Bu, Rusiyanın bölgədə daha sərt siyasət yeritməsinə səbəb oldu. Rusiyanın dəstəyi ilə Osetin millətçiləri Şimali Osetiya ilə Cənubi Osetiyanın birləşməsi tələbini irəli sürdülər. Cənubi Osetiya Ali Sovetinin məsələ ilə bağlı qərarı vəziyyəti daha da pisləşdirdi. Osetinlərin Şimali Osetiyaya, gürcülərin isə Şimali Osetiyadan Gürcüstana axını başladı. Tbilisidə, Osetiyada baş verən qanlı hadisələr həmçinin Rusiyanın hadisələrdən öz xeyrinə istifadəsi nəticəsində Z.Qamsaxurdiya 1992-ci ildə hakimiyyətdən uzaqlaşdırıldı [Qurbanov, 2008: 482].

Bəhs edilən dövrdə Cənubi Qafqazın ağrılı problemlərindən biri də Abxaziyada baş vermiş milli münaqişələr olmuşdu. Məlum hadisələr zamanı Abxaziyada müstəqillik və ya Rusiyaya birləşmə meylləri artmış, bu da Gürcüstanın mərkəzi hakimiyyəti ilə gərginliyə səbəb olmuşdur.

Abxaziyada 1989-cu ilin iyul ayında ziyalıların təşəbbüsü ilə bölgədəki vəziyyətlə bağlı siyasi müzakirələr aparıldı. Danışıqlar aparılmasına baxmayaraq Abxaziya Ali Sovetindəki müzakirələrdə siyasi qüvvələrin fikirləri, ortaya qoyulan məsələlər vəziyyəti daha da gərginləşdirdi. Gürcüstanın tərkibindən siyasi yolla çıxmaqla məsələnin həll olunması tərəfdarları silahlı yolla problemin həllini tələb edən digər qrup arasında fikir ayrılıqları ortaya çıxdı. Danışıqlar prosesi başa çatmamış 1989-cu il iyulun 15-16-da gürcülərlə abxazlar arasında qanlı toqquşmalar baş verdi. Abxaziya tərəfindən 16 nəfər həlak oldu. Sovet rəhbərliyinin məsələyə biganə yanaşması vəziyyəti bir az da gərginləşdirdi. Regionda etnik zəmində baş vermiş milli münaqişələrin daha da mürəkkəbləşməsini, xüsusilə Cavaxetidə ermənilərin, Abxaziyada abxazların, Cənubi Osetiyada osetinlərin, həmçinin acarların və digər separatçı qrupların fəallaşmasının qarşısını almaq üçün Gürcüstan hökuməti Moskvanın passiv müşahidəçilik mövqeyini tənqid atəşinə tutdu. Eyni zamanda, 1990-cı il noyabrın 16-da Gürcüstanda abxazların, acarların və osetinlərin bir neçə gizli təşkilatlarının fəaliyyəti, o cümlədən "Adaemon Nikos" (xalqın sözü) separatçı təşkilatın fəaliyyəti dayandırıldı. Bu məcburi tədbirlə yanaşı Gürcüstanda separatizmin hərbi-siyasi mərkəzinə çevrilmiş muxtar qurumlar da ləğv edildi [Nuruzadə, 2025: 57].

Yuxarıda qeyd etdiyimiz kimi, SSRİ-nin dağılması ilə əlaqədar olaraq Cənubi Qafqazda etnik münaqişələr kəskin xarakter almış, mərkəzi hakimiyyət tərəfindən müəyyən dərəcədə nəzarətdə saxlanılsa da, açıq silahlı qarşıdurmalara çevrilmişdir.

Cənubi Qafqazda gedən proseslərin əsas mərkəzində azərbaycanlı əhaliyə qarşı erməni terroru, Ermənistan Respublikasının antiazərbaycan siyasəti olmuşdur.

1987-ci ildən Ermənistan SSR ərazisində azərbaycanlılara qarşı etnik zəmində təzyiqlər edilməyə başlanıldı. Qafan rayonu ərazisində azərbaycanlıların qəddarlıqla deportasiyası həyata keçirildi. Tarixi yurdlarından heç bir əsas olmadan, zorla didərgin edilmiş Azərbaycan türklərinin hüquqları kobud şəkildə pozuldu. Öz el-obasından çıxarılan insanların evləri talan edildi, əksəriyyəti fiziki zorakılığa məruz qaldı. Deportasiya siyasətinin ən acı nəticələrindən biri də o olmuşdur ki, zorakı tədbirlər zamanı qocalar, uşaqlar, xəstələr kəskin iqlim dəyişikliyinin, fiziki və mənəvi sarsıntıların qurbanı olmuş, iztirablara dözməyərək həlak olmuşdular. Azərbaycanlı əhaliyə qarşı həyata keçirilmiş etnik təmizləmə siyasəti Ermənistan hakimiyyət nümayəndələrinin birbaşa himayəsi və göstərişləri əsasında həyata keçirilmişdir. Tarixi Azərbaycan torpaqları olan Qərbi Azərbaycandan – Ermənistandan zorla çıxarılan 250 mindən çox azərbaycanlılardan 216 nəfər vəhşicəsinə qətlə yetirilmiş, 1154 nəfər yaralanmışdır [Abdullayev, 2026: Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, 2026]. Məlum hadisələr nəticəsində Ermənistan SSR-in Qafan rayonunda erməni millətçiləri tərəfindən başladılmış zorakılıq aktları 1991-ci ilin avqustunda Zəngəzurun Nüvədi yaşayış məskənində yekunlaşdırılmışdır. Bəhs olunan beş il ərzində azərbaycanlılara qarşı planlı şəkildə həyata keçirilmiş etnik təmizləmə tədbirləri SSRİ-nin ali orqanlarının gözləri qarşısında baş vermiş və bu zaman kəsiyində bütün Ermənistana, həmçinin Azərbaycanın Qarabağ bölgəsinə yayılmışdır [Abdullayev, 2026].

Ermənistan dövləti tərəfindən təkcə yerli azərbaycanlı əhaliyə deyil, həmçinin tarixi abidələrə qarşı da vandalizm aktları törədilmişdir. Zəngəzur bölgəsindəki Səlim aşırımındakı karvansara, Urud kəndindəki qəbiristanlıq, Laçın bölgəsinə bağlı Cicimli kəndindəki Məlik Əjdər türbəsi və yüzlərlə digər abidə erməni terrorunun qurbanı olmuşdur [Səfərli, 2018: 102].

SSRİ rəhbərliyinin regionda sabitliyi bərpa etmək, respublikalar daxilində baş qaldırmış milli hərəkatları boğmaq üçün gördüyü tədbirlər dəhşətli faciələrlə sonlandırılırdı. Belə ki, Qarabağda cərəyan edən hadisələrlə bağlı tədbirlər görməyən Azərbaycan SSR rəhbərliyinə qarşı etirazlarını bildirmək üçün meydanlara toplaşmış xalq ölkənin paytaxtı Bakı şəhərində 1990-cı ilin yanvar ayının 19-20-ə keçən gecə sovet ordusunun canlı qüvvəsi və ağır hərbi texnikası ilə gülləboran edilmiş, 131 nəfər qətlə yetirilmişdir. Aparılan hərbi əməliyyat zamanı 744 nəfər dinc sakin yaralanmış, yüzlərlə insan həbs edilmişdir [Azərbaycan tarixi, 2008: 212]. Bu qanlı cinayət Azərbaycan xalqının SSRİ rəhbərliyinə qarşı olan inamını itirmiş, sovet rəhbərliyinin cinayətkar əməlləri qarşısında cavab verməli olduğunu tələb etmişdir. Törədilmiş facię Azərbaycan xalqının milli ruhunu daha da artırmış, müstəqillik ideyaları uğrunda mübarizədə qətiyyətli addımlar atmağa sövq etmişdir.

Cənubi Qafqaz respublikaları, o cümlədən Azərbaycan müstəqillik əldə etdikdən sonra yeni siyasi sistemlərin qurulması və dövlət institutlarının formalaşdırılması istiqamətində bir çox addımlar atılmışdır. Lakin həyata keçirilən tədbirlər vahid və sabit şəkil almamış, ölkədaxili ziddiyyətlər, qarşıdurmalar və siyasi böhranlarla müşayiət olunmuşdur. Azərbaycanda müstəqilliyin ilk illəri siyasi hakimiyyət uğrunda mübarizə, idarəetmə böhranı və iqtisadi çətinliklərlə səciyyələnmişdi. Dövlət aparatının zəifliyi və təcrübəsizlik siyasi sabitliyin təmin olunmasını çətinləşdirirdi. Bununla yanaşı, ölkə Dağlıq Qarabağ münaqişəsi ilə üzləşmiş və bu münaqişə dövlət quruculuğu prosesinə ciddi təsir göstərmişdir. Azərbaycan hökumətinin Ermənistanın silahlı təcavüzü ilə qarşı-qarşıya qalması, Ermənistana işğal və qırğınları dayandırmaq üçün təzyiqlər göstərəcək müttəfiqlərin tapılması, problemin beynəlxalq səviyyədə həllinə çalışılması məsələsi bəhs olunan dövrün əsas prioritetlərindən idi.

1992-ci il yanvarın 30-da Azərbaycan Respublikası ATƏM-ə üzv seçildi və iyul ayında təşkilatın Helsinkidə keçirilən Zirvə toplantısında onun sənədlərini imzaladı [Əhmədov, 2013: 64]. Bununla da Sovet ittifaqının dağıldığı bir vaxtda Cənubi Qafqazda cərəyan edən proseslər dünya miqyaslı problemli məsələ səviyyəsi aldı. Bir tərəfdən ölkə daxilindəki separatçı qüvvələr, digər tərəfdən də Qarabağ problemi Azərbaycanda ictimai-siyasi vəziyyəti daha da ağırlaşdırmışdı. Müharibə şəraiti iqtisadi resursların hərbi məqsədlərə yönəldilməsinə səbəb olmuş, sosial problemləri daha da dərinləşdirmişdir.

**NƏTİCƏ**

70 il mövcud olmuş, dünyada yeni ictimai-siyasi formasiyanın təməlini qoymuş, kommunizm ideologiyası ilə totalitar rejim formalaşdırılmış Sovet Sosialist Respublikalar İttifaqı 1991-ci ildə rəsmən süquta uğramış, vahid ittifaqda birləşdirilmiş respublikalar müstəqil dövlətlərə çevrilmişdilər. Cənubi Qafqazda da baş verən proseslər nəticəsində yeni siyasi reallıqlar yaranmışdır. Bu reallıqlar bir tərəfdən müstəqil dövlətlərin yaranmasını təmin etmiş, digər tərəfdən isə uzunmüddətli münaqişələr, geosiyasi rəqabət və siyasi qeyri-sabitlik kimi problemləri ortaya çıxarmışdır. Buna baxmayaraq, zaman keçdikcə regionda mövcud olan ölkələr dövlət institutlarını möhkəmləndirməyə, iqtisadi islahatları dərinləşdirməyə və beynəlxalq inteqrasiya prosesində daha fəal iştirak etməyə başlamışlar. Həyata keçirilən tədbirlər gələcəkdə regionda sabitliyin və inkişafın təmin olunması üçün mühüm əsas yaratmış, bölgənin dünya dövlətləri ilə bütün sahələrdə əlaqələr yaratmasına imkan vermişdir.

**ƏDƏBİYYAT**

Abdullayev, F. (2026). *Digər Azərbaycanlılara qarşı deportasiya siyasətinin təhlili*. Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi. https://aircenter.az/uploads/5Qs4RK63zDpw.pdf

Qaffarov T. (Red.). (2008). *Azərbaycan tarixi* (7 cilddə, 7-ci cild: 1941-2002-ci illər). Elm.

Əhmədov, E. (2013). Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı müzakirələrin mərhələləri. *Strategiya Təhlili*, *6*, 63-81.

Azərbaycan Respublikası Prezidentinin Administrasiyası. (2026). *Ermənistan-Azərbaycan münaqişəsi*. https://president.az/az/pages/view/azerbaijan/karabakh

Qamsaxurdıya, Z. (2015). *Proleks enciklopediya*. https://proleksis.lzmk.hr/22628/

Nuruzadə, Ş. (2025). XX əsrin 80-90-cı illərində Cənubi Qafqazda etnik qrupların separatizm cəhdləri və onun nəticələri. *Akademik Tarix və Düşüncə Jurnalı*, *12* (2), 52-62.

Qasımlı, M.C. (2016). *Ermənistanın sovetləşdirilməsindən Azərbaycan torpaqlarının işğalına qədər erməni iddiaları: Tarix – olduğu kimi (1920-1994)*. Azərbaycan Respublikası Prezidenti tərəfindən Elmin İnkişaf Fondu.

Qurbanov, R.O. (2008). *Qafqaz tarixi*. Zərdabi LTD MMC.

Səfərli H.Y. 2018. *Qondarma erməni soyqırımı və tarixi həqiqətlər*. Əcəmi.

*(AMEA-nın müxbir üzvü Hacıfəxrəddin Səfərli tərəfindən təqdim edilmişdir)*

**Daxilolma tarixi: İlkin variant 13.05.2026**
**Son variant 09.06.2026**